www.ipekchi.info

# İPƏKÇİ

1933-cü ildən nəşr edilir

AZƏRBAYCAN İPƏKÇİLƏRİNİN AÇIQ TRİBUNASI

"..."İpəkçi"nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm",

**Heydər Əliyev.**

№ 5 (2269) | 28 Aprel 2010-cu il | Qiymәti 20 qәpik

# MAY AYININ 10-U, DÜNYA SƏVİYYƏSİNDƏ TANINMIŞ SİYASİ XADİM VƏ AZƏRBAYCAN RESPUBLİKASININ 3-CÜ PREZİDENTİ MƏRHUM HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 87-Cİ İLDÖNÜMÜDÜR!



## Bu münasibətlə, biz onun vaxtilə, "İpəkçi" qəzetininin 60 illik yubileyində, redaktor Salis Məmmədova göndərdiyi təbrikini bir daha oxucularımızın diqqətinə təqdim edirik:

№1/1328

14 dekabr 1993-cü il

***"İpəkçi" qəzetinə***

*Dünya şöhrətli ipəkçilərimizin əmək rəşadətlərinin yorulmaz tərənnümçüsü "İpəkçi" qəzeti 60 illik yaradıcılıq yolunu şərəflə keçmiş, respublikamızın ictimai-siyasi həyatını dolğun əks etdirməklə öz oxucularının rəğbətini qazanmışdır.*

*Bu əlamətdar hadisə - 60 illik yubiley münasibəti ilə qəzeti və onun əməkdaşlarını ürəkdən təbrik edir, onların hər birinə cansağlığı, xoşbəxtlik və bundan sonra da oxucu etibarına layiq olmağı arzulayıram.*

*Taleyi sınanan xalqımızın bu ağır çağlarında "İpəkçi"nin yaradıcı kollektivinə haqq-ədalət uğrunda mübarizə aparmaqda, bütün qüvvələri səfərbər etməkdə, hər bir oxucuda müstəqil Azərbaycanın sabahına inam yaratmaqda böyük uğurlar diləyirəm.*

***Azərbaycan Respublikasının***
***Prezidenti H.Ə.Əliyev***



Salis Məmmədov
1932 -2009

## M.Q.Cabbarlının Şəki şəhəri İcra hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Murad Qorxmaz oğlu Cabbarlı Şəki şəhəri İcra hakimiyyətinin başçısı təyin edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 aprel 2010-cu il.

## N.A.İbrahimovun Şəki şəhəri İcra hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Nazim Asabəli oğlu İbrahimov Şəki şəhəri İcra hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 aprel 2010-cu il.

**R.S.** Şəki Şəhəri İcra Hakimiyyətinin yeni başçısı haqqında, bu qəzet çapa hazırlanarkən, əldə etdiyimiz məlumat:

Murad Qorxmaz oğlu Cabbarlı, 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. Anası şəkilidir. Moskva Dövlət Universitetini bitirmişdir. Fəlsəfə elmləri namizədidir. Daha əvvəl Şəki "Kərpic" MMC-yə rəhbərlik edirdi.

## Qeyri-maddi mədəni irsin qorunmasına dair TÜRKSOY-un III seminarı aprelin 28-də Şəki şəhərində davam etdiriləcəkdir




Mədəniyyət və Turizm Nazirliyindən verilən rəsmi məlumata görə:

2010-cu il 27 aprel, saat 10.45-də "Muzey Mərkəzi"nin binasında Qeyri-maddi mədəni irsin qorunmasına dair TÜRKSOY-un III seminarı başlanacaq.

16-17 oktyabr 2009-cu il tarixlərində Bakı şəhərində keçirilmiş TÜRKSOY təşkilatının Mədəniyyət Nazirlərinin Daimi Şurasının XXVI toplantısında qəbul edilmiş "TÜRKSOY-un 2010-cu il üçün Fəaliyyət Proqramı"na əsasən Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Qeyri-maddi mədəni irsin qorunması üzrə TÜRKSOY təşkilatının "Türkdilli xalqların qeyri-maddi mədəni irsinin konvensiyalaşdırılması, inventarlaşdırılması və proqramlaşdırılması" mövzusunda III Beynəlxalq seminarının təntənəli açılışına Fırat Purtaş (TÜRKSOY təşkilatının Baş katibinin müavini), Elçin Qafarlı (Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin TÜRKSOY təşkilatındakı nümayəndəsi), Öcal Oğuz (Türkiyə Respublikası Qazi Universitetinin prof. Doktoru), Nebi Özdemir (Türkiyə Respublikası Hacettepe Universitetinin prof. doktoru), Metin Ekici (Türkiyə Respublikası Ege Universitetinin prof. doktoru), Mahmut Evkuran (Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Araşdırma və Təhsil Baş İdarəsinin müdiri), Şengül Gitmez (Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Araşdırma və Təhsil Baş İdarəsinin şöbə müdiri), Ahmet Gökhan Kaynakçı (Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Araşdırma və Təhsil Baş İdarəsinin məsləhətçisi), Serikkazy Korabay (Qazaxıstan Respublikasının M.O. Auezov adına Ədəbiyyat və İncəsənət İnstitutu), Fanziliya Zavqarova (Tatar folklorunun Dövlət toplanma, qorunma, öyrənilmə və təbliğat mərkəzinin direktoru), Yusuf Örs (Şimali Kipr Türk Respublikası, sənət tarixçisi), Fatma Giritli (Şimali Kipr Türk Respublikası, xalq musiqisi üzrə tədqiqatçı) kimi mütəxəssislər dəvət olunub.

Seminarın ilk günü "Türk dünyasının qeyri-maddi mədəni irsinin qorunması və dəstəklənməsinin konvensiyalaşdırılması perspektivləri" mövzusunda məruzə dinlənəcək. Günün ikinci yarısında İştirakçıların 2010-cu il üçün Azərbaycanın Sənətkarlıq Paytaxtı - Şəkiyə yola düşməsi və seminarın işinin aprelin 28-də Şəki şəhərində davam etdirməsi planlaşdırılır. Şəki şəhərində davam olunacaq seminarda TÜRKSOY-un qeyri-maddi mədəni irsin Beynəlxalq Reyestrinin formalaşdırılmasının imkanları, "Türk dünyasının xalq yaradıcılığı paytaxtları" Beynəlxalq Proqramı layihələrinin müzakirələrindən sonra seminarın işi yekunlaşdırılacaq. Ertəsi gün iştirakçıların Şəki şəhərinin muzeyləri və tarixi abidələri ilə tanışlığı gözlənilir. Aprelin 30-da şəhərimizin qonaqları üçün İçərişəhər Dövlət Tarixi-Memarlıq Qoruğuna, Azərbaycan Dövlət İncəsənət Muzeyinə və Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə ekskursiyaları təşkil olunacaq.

## Mingəçevirdə "Regional medianın durumu və perspektiv imkanları" mövzusunda konfrans keçirinişdir

Mingəçevir Media Mərkəzində "Mingəçevir işıqları" qəzeti və Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının təşəbbüsü ilə "Regional medianın durumu və perspektiv imkanları" mövzusunda konfrans keçirilib. Bakı, Gəncə, Mingəçevir, Yevlax, Şəki, Oğuz və digər bölgələrdə fəaliyyət göstərən KİV nümayəndələrinin qatıldığı tədbiri "Mingəçevir işıqları" qəzetinin şöbə müdiri Yeganə Nəbiyeva açıb. Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının (AJQA) prezidenti Sevil Yusifova Y.Nəbiyevanı rəhbərlik etdiyi təşkilatın Koordinasiya Şurasının üzvü və Mingəçevir təmsilçisi olduğunu elan edib. O, jurnalistlərin peşə etikası və davranış qaydalarına əməl edilməsi vəziyyətinə də nəzər salıb. "Biz həmişə deyirik ki, KIV dördüncü hakimiyyətdir və informasiyanın ədalətli, qərəzsiz çatdırılmasında müstəsna rol oynayır. Bu səbəbdən də mətbuatın icitimaiyyətə verdiyi yanlış məlumat bir çox hallarda faicələrə apara bilər. Məhz KİV-in topluma təsir gücünü nəzərə alıb deyə bilərik ki, mətbuatın üzərinə böyük məsuliyyət düşür. Biz inanırıq ki, ictimaiyyətin maarifləndirilməsi ədalətin müjdəçisi və demokratiyanın özülüdür. Jurnalistlər xalqa dürüst və vicdanla xidmət göstərməyə çalışmalıdırlar. Jurnalist həmişə həqiqəti axtarmalı və əldə etdiyi həqiqəti açıqlamalıdır. Mətbuat vəkillik etməməli, o məlumatın yayılmasında maraqlı olmalıdır",-deyə S.Yusifova əlavə edib. S.Yusifova 2010-cu ilin seçki ili olduğunu və jurnalistlərin etika məsələlərinə diqqət göstərmələrinin vacibliyini vurğulayıb. Mingəçevir Media Mərkəzinin rəhbəri Fərman Nəbiyev "Azərbaycanın bölgələrində fəaliyyət göstərən nəşrlərin iqtisadi vəziyyəti. Mətbuat və biznes. Beynəlxalq təcrübə" barədə danışıb. O, çıxışında qəzetlərin abunə və yayımı, evlərə çatdırılması, səyyar satışın təşkili, sahibkarların reklama cəlb edilməsi, satılmayan qəzetlərin sonrakı taleyi və s. problemlərə toxunub. ELTV-nin Xəbərlər Departamentinin rəhbəri İnqilab Şirinbəyli regionda məmur-media münasibətləri haqda söhbət açıb. İ.Şirinbəyli İcra Hakimiyyətlərində mətbuat xidmətlərinin yaradılması təklifi ilə çıxış edib. Azad Azərbaycan Müstəqil Teleradio Şirkətinin bölgə müxbiri Mədinə Nik-Nəcat Mirzəağa bildirib ki, bölgə müxbirləri kifayət qədər çox işləsələr də baş ofisdə çalışan həmkarlarından az əmək haqqı alırlar. "Şəki xəbər" qəzetinin Baş redaktoru Sadıq Fətəliyev Mətbuat Şurasının əyalətlərdə fəaliyyət göstərən müstəqil qəzetlərdə monitorinq aparmasını və layiqli qəzetlərə dəstək göstərilməsi təklifini irəli sürüb. Konfransın sonunda Y.Nəbiyeva regional medianın durumu ilə bağlı Prezident İlham Əliyevə tədbir iştirakçıları adından qəbul olunmuş müraciətin mətnini oxuyub.

***Mübariz Aslanov,***
*AZADİNFORM.*

**R.S.** Yeri gəlmişkən, "İpəkçi" və "Şəkinin səsi" qəzeti redaksiyaları adından bildiririk ki, biz bu tədbirə dəvət edilməmişik. Halbuki, regionlar üzrə ilk müstəqil qəzet "Şəkinin səsi"dir! Azərbaycan Sovet mətbuatında ənənəvi "Bütün ölkələrin proleterları birləşin!", şüarından ilk dəfə "İpəkçi" qəzeti imtina etmiş, hələ Sovet dövründə (12.12.1990) rəsmən, müstəqil medianın əsasını qoymuşdur!

Tədbirdə Prezident İlham Əliyev cənablarına nə barədə müraciət qəbul edildiyini də oyrənə bilmədik. Əgər, bu Müraciətdə regional medianın ağır vaziyyətindən bəhs olunubsa, biz də həmin Müraciəti dəstəkləyirik. Büz də dövlətdən heç bir kömək görmürük, əksinə Dövlət bizim hər şeyimizi, otağımızı, avadanlığımızı əlimizdən alıb!

# "ŞƏKİ-İPƏK" ASC SUTKADA 5 TON PAMBIQ SAP İSTEHSAL ETMƏYƏ BAŞLAYIB!

"Şəki-İpək" ASC Respublikadakı 2 ən böyük pambıq sap istehsal edən müəssisədən biridir. Burada, Pamdıq Əyirici İstehsalatında, vur-tut, 70 nəfər işçi çalışsa da sutkada 5 ton pambıq sap istehsal olunur. İstehsalatın sexləri ən müasir texnologiya və avadanlıqlarla təchiz olunmuşdur. Cəmi, 1 nəfər böyük bir sexə nəzarət edə bilir. Əl əməyindən daha çox anbarda, hazır məhsulun qablaşdırılması və göndərilməsi zamanı istifadə olunur. Elə işçilərin də az qala yarısı burada çalışırlar. Hazır məhsulun böyük hissəsi Rusiya bazarına ixrac edilir, qismən isə "Şəki-İpək"ASC-nin digər İstehsalatında - Toxucu İstehsalatında, pambıq parça toxunması üçün istifadə olunur. Ən yaxşısı isə budur ki, ASC-nin Baramaaçan İstehsalatından fərqli olaraq, bu Pambıq Əyirici İstehsalatında emal edilən xam mal xarici yox, Azərbaycan malıdır!

## Foto-reportaj:


*Türkiyəli mütəxəsislər iş otağında:*
*Fahrettin Bozkurt, Hasan Karadutlu və Erhan Ucar.*



















# ŞƏKİDƏ ARXEOLOJİ ABİDƏLƏRİ KİMLƏR DAĞIDIR?!

Nəsib Muxtarov AMEA Arxeologiya və Etnoqrafiya İnstitunun Şəki qrupunun rəhbəridir. 1982-ci ildən arxeologiya ilə məşğul olur. Arxeoloq deyir ki, son zamanlar apardığı ekspedisiyalar ciddi maneələrlə qarşılanır.

Arxeoloq deyir ki, Prezident Dövlət Fondundan pul ayırıb və bu vəsaitlə 2 ildə 40-dan çox ekspedisiya işləyib. "Bəzi İcra Hakimləri, idarə rəhbərləri isə arxeoloqların işinə nəinki kömək edirlər, əksinə mane olurlar. Biz Daşüz (Dış Oğuz) ərazisindəki kərpic zavodu tərəfindən dağıdılan abidələri xilas etməyə cəhd göstərdik. Lakin bizi oradan zorla çıxardılar. Onlar eşitmək belə istəmədilər ki, biz onların dağıtdıqları mədəni sərvətimizi xilas etmək istəyirik. Bu cür adamlarla hansı dildə danışasan? Ölkədə gedən mədəni siyasətdən, Azərbaycan Prezidentinin apardığı mədəniyyətdən dünyaya açılımların mahiyyətindən bixəbər bir insanlara nə deyəsən? Amma çox təəssüf ki, onların bu haqsızlığı ayaq tutub yeridi, bizim haqqımız ayaq altında qaldı. Bəziləri anlamaq istəmir ki, arxeoloq insanın, toplumun, bəşərin tərcümeyi-halını öyrənir, dəqiqləşdirir".

Nəsib müəllim bunu ölüm ayağında olan xəstənin yanından həkimin uzaqlaşdırılmasına bənzədir. Ərazidə təmənnasız işləyən arxeoloqlar zavod rəhbərliyinin kobud münasibətini görüb nazirliyə müracit ediblər. Arxeoloqların harayına abidələri qoruyanlar, mədəniyyət şöbəsinin rəhbərləri də fikir verməyib: "Əsrlərdən bu zaman qədər gələn, e.ə. II minilliyini sonu, I minilliyin əvvəlinə aid mədəniyyət nümunəsi mədəniyyətiz münasibətin qurbanına çevrildi".Nəsib Muxtarov zavod ərazisindəki kurqanları öyrəndiyi zaman, oradan 4000 il əvvələ aid ibtidai samovar tapıb. O deyir ki, əhali zavod ərazisindən çıxarılan qabları öz evlərinə aparır. Ya ölkədən kənara, ya daxilində satılır: "Bu əraziyə gedəndə zavod rəhbərliyinə dedim ki, işçilərinizlə birlikdə camaatdan bu qabları geri alaq. Ya muzey açaq, ya da onları aparıb Diyarşünaslıq muzeyinə verək. Amma Murad müəllim buna fikir vermədi". Arxeoloq deyir ki, Mədəniyyət və Turizm Nazirliyinin mədəni irsin qorunması şöbəsinə yalandan məlumat verilib ki, həmin ərazidəki işi təzədən yaxşı hala salmaq üçün köməklik göstərirlər. Əslində isə heç bir köməklik göstərilməyib: "Icra Başçısı bizi ora qaytarmadı ki, işimizi davam etdirək. Təkcə bizim İnstitutun rəhbərliyi operativ münasibət göstərdi, komissiya gəldi, mövcud vəziyyət araşdırıldı və hansısa vəsait olsa biz orada işi davam etdirəcəyik".

### Kotan Ağzina Verilən Kurqanlar

Arxeoloq həyəcan təbili çalaraq bildirir ki, Şəkinin Dəhnə kəndində də aşkarladığı nekropollar məhv olma təhlükəsi ilə üz-üzədir. Təxminən 90 hektarlıq ərazisi olan bu yerdə üstü daşlarla örtülü olan abidələrin daşları təmizlənib, torpağı əkib üzərinə toxum səpiblər: "Respublikamızda torpaq haqqında qanun var. Əvvəlcə bu işi edən insanlar torpağa qarşı belə qəddar münasibət göstərdiklərinə görə məsuliyyət daşıyırlar". N.Muxtarovun ekspedisiyası bu ərazidə kurqanların olduğunu aşkar edib. Təxmini hesablamalara görə, bu ərazidə 125 ədəd kurqan olub. Amma ərazinin əkilməsi ilə 100-dən çox kurqan dağıdılıb: "Kurqanın yerüstü hissəsiylə yeraltı hissəsi birlikdə böyük bir konsepsiyadır. Bu, yaşanmış bir tarixdir, keçmişimizdir. Maddi və mənəvi vəhdət orada özünü göstərir. Orada biz daşdan düzülən böyük bir buta tapdıq. O butanın bir hissəsini traktor dağıtmışdı. Buta olan yerdən 7 ədəd sınmış kotan dişi çıxdı. Mən onlara göstərib dedim ki, baxın bu kotan dişiylə mənəviyyatmızı, tariximizi məhv edirsiniz". Nəsib Muxtarov deyir ki, Dəhnədəki hadisədən xəbər verən kimi mədəniyyət nazirliyni turizm idarəsi məsələyə dərhal reaksiya göstrədi kurqanların qorunması üçün müxtəlif tədbirlər görüldü. "Dövlət bunun üçün vəsait ayırıb və bununla 20-25 kurqanın öyrənilməsi nəzərdə tutulur. Bu mədəniyyətin bir ucu bizi Mesopotomiya, bir ucu isə Şimali Qafqazla birləşdirir. Yəni, bu kurqanların olduğu ərazilər bir tərəfdən Qara dəniz sahillərinə, digər tərəfdən isə Şəki yaylasından keçib Dərbənd tərəfə çıxır. O, hələ ki, bu kurqanların yalnız birini öyrənib ki, bu da Orta Tuncun axırı, Son Tuncun əvvəlinə aid edilir (e.ə. XV-XIV əsr). Ekspert qeyd edir ki, kurqanın yerüstü hissəsi hətta o dövrə aid olan mülki memarlıq haqqında da təsəvvür yaradır. Çünki qədimdə əhali yaşadıqları evlərin formasında da qəbir düzəldirdilər: "Orada 80-dən çox kurqan olan yer əkilib. Biz onların daş nişangahını yığmışıq, Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə dövlət səviyyəsində ciddi tədbirlər görülür. Əgər orada qalan 20-25 kurqanı öyrənsək və yerdə qalanların üstünü qaytara bilsək, bu zaman tariximiz, mədəniyyətimiz qazanar. Yaxşı ki, respublika səviyyəsində işə qarışıb bizi yerli nadanların əlindən xilas etdilər."

### Qəbiristanliqda Restoran

N.Muxtarov deyir ki, Baş Küncütdə 4-6-cı əsrə Aid Küncüt qalası var . Bu qalanın nekropolunda vaxtilə çox məşhur adamlar dəfn olunub. Orada 80-90-cı illərdə restoran tikilmişdi. Amma o vaxtkı Mədəniyyət şöbəsinin müdiri obyektin işini dayandırmışdı. Bu yaxınlarda yeni rayon rəhbərliyi qəbrlərin üstündə restoranın fəaliyyətinə icazə verdilər. Halbuki Mədəniyyət və Turizm Nazirliyinə hesabat verəndə deyirlər ki, orada elə bir şey yoxdur. Bəzən yuxarı dairələrə səhv məlumatlar verilir, informasiya düzgün çatdırılmır. Əgər düzgün çatdırılsa, yuxarı dairələr təcili tədbirlər görər və bu abidələrə ciddi münasibət göstərilməsi kimlərəsə məcbur edilər.

### "Oğuzdakı Kurqan Abıdəsı Reallaşsa Mısır Pıramıdası Qədər Turıst Cəlb Edər"

Nəsib Muxtarov Şəkinin Fazıl ərazisində aşkarladığı abidələri birləşdirən bir labirint-abidə də yaradıb. Bu labirint tək Azərbaycanda yox, Cənubi Qafqazda da ən unikal abidədir. Bu, böyük bir nekropoldur. Nəsib müəllim onu yerin altında yaradıb, tapılan qəbirlərin üstünü tağla örtüb. Və nəticədə bu yerdə böyük yeraltı muzey yaradılıb. Bu labirint e.ə. II minilliyin axırından b.e. I minilliyin yarısına qədərki dövrü əhatə edir. Hazırda arxeoloqun sonuncu işi Oğuz rayonundakı Kərimli ərazisindəki kurqanı tapmaq olub. N.Muxtarov deyir maraqlı nəticəyə gəlmişəm ki, Oğuzdakı daş kurqanlar torpaq kurqanlardan da qədimdir. Çünki orada arxeoloqun qazdığı daş kurqan e.ə.III minilliyin II yarısına aiddir. Amma torpaq kurqanlar isə e.ə. II minilliyin II yarısından qalıb. Burada əvvəlcə 9 kurqan var idi, sonra isə axtarışlar nəticəsində onların sayı 18-ə çatıb. Arxeoloq deyir ki, inanıram Oğuzdakı Kurqan abidəsi gerçəkləşsə, Misir piramidalarına nə qədər turist axışırsa, ora da o qədər turist gələr. Bu proqrama geniş meydan vermək lazımdır.

***Günay Kərimova***
*www.hafta-ichi.com*




**Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Şəki arxeologiya və folklor qurupu, son tapıntılar**



# F. X. Xoyskinin bacısının başdaşı Şəki "Xan qəbristanlığı"na - əvvəlki yerinə qaytarılmalıdır!

15 aprel, 2010-cu il tarixdə, "Şəki Xan qəbristanlığı" ziyarət edərkən, aşkar etdik ki, Fətəli xan Xoyskinin bacısı Səltənət bəyimin qəbrinin üstündəki başdaşı, həmçinin, Səltənət bəyimin anasına aid baş daşı hissələri və 4-5 digər yazılı başdaşı qalıqları bu qəbristanlıqdan yoxa çıxmışdır, hansı ki biz onların foto şəkilərini cəmi 1 il əvvəl çəkmişdik:

**Səltənət bəyimin başdaşı**



**Səadət bəyimin başdaşısının bir hissəsi**



Məlumat üçün əlavə edək ki, Səltənət bəyim 1869-cu ildə dünyasını dəyişmişdir . Səltənət bəyimin anası Səadət bəyim isə 1892-ci ildə vəfat etmişdir. (Bu baş daşı hissəsinin Səadət xanıma aid olduğunu ilk dəfə biz müəyyənləşdirmişdik, özü də cəmi 1 il əvvəl) Səadət bəyimin atası İsmayıl xan Xoyski, anası isə Məhəmmədhəsən xanın qızı Tuti ağa idi. İsmayıl xan 1819-cu ildə Şəkidə vəfat etmiş, lakin Kərbalada torpağa tapşırılmışdır. Tuti ağa isə 1859-cu ildə Tiflisdən gələrkən yolda vəfat etmiş, sonra nəşi Şəkiyə gətirilmiş və o, bu qəbristanlıqda, atası Məhəmmədhəsən xanın qəbrinin yanında dəfn edilmişdir...

Yoxa çıxmış başdaşı və başdaşı qalıqları ilə bağlı məsələni aydınlaşdırmaq üçün Şəki Mədəniyyət və Turizm şöbəsi ilə telefon əlaqəsi yaratdıq. Şöbənin rəisi, adaş-familiyadaşımız Aydın Məmmədovun Şəkidə olmadığını bildirdilər, onun əvəzinə, müavini İsmayıl müəllim cavab verdi ki, "bəli, bu doğrudur, biz həmin başdaşını və başdaşı qalıqlarını qorumaq məqsədi ilə onları oradan götürüb Diyarşunaslıq muzeyinə təhvil vermişik"?!

Hörmətli oxucu! Nəzərinizə çatdırırıq ki, muzey fonduna daxil olmuş əşyalar bir daha geri qayıtmır! Buna görə də elə indidən, Fətəli xan Xoyskinin bacısının qəbrini itmiş hesab edə bilərsiniz, hansı ki bu günlərə qədər dururdu, belə ki üstündə baş daşısı var idi! Qəbrin kimə məxsus olması, başdaşı vasitəsi ilə müəyyənləşir, əgər başdaşı muzeydə nümayiş etdirilirsə, o zaman qəbir itmiş hesab olunur, necə ki qubalı Fətəli xanın baş daşı Tarix muzeyindədir, qəbri isə yoxdur.

Onu da xatırlatmaq yerinə düşər ki, vaxtilə, Gilək minarəsinin yanında movcud olmuş qəbristanlıqdan neçə-neçə başdaşı "qorunmaq adı" altında muzeylərə verilmiş və onlardan heç biri geri qaytarılmamışdır (bəziləri indi Bakıdadır) və oradakı bütün qəbirlər də itmişdir! Həmçinin, həmin ərazidə, ötən əsrin 40-cı illərinə qədər, "Şəki, Şirvan hakimi Çələbi xan..." yazılmış bir kitabə də var idi, foto şəklini çəkiblər, özü isə indi yoxdur! Onu da yəqin ki "qorunmaq" adı altında götürüblər, kim götürdü, hara təhvil verdi, heç kim bilmir, amma nəticə budur ki Çələbi xanın adı yazılmış o çox qiymətli bir epiqrafik abidə, bu gün artıq yoxdur!!!

**Aydın Məmmədov,**
*"İpəkçi" qəzetinin redaktoru,*
*"Fətəli xan Xoyski barədə sayt"ın editörü,*
*kulturoloq,*
*Muzey işi və tarixi abidələrin mühafizəsi üzrə mütəxəssis.*



# Vətəndaş eqoistlik edir, bəs Bələdiyyə və digər yerli orqanlar hara baxır?!

## Və yaxud, turizm mərkəzi olan şəhərin mərkəzində xaraba!

Bura təşrif buyuran qonaq və turistlər elə bilirlər zəlzələ olub!

Bəli, Şəki şəhərinin mərkəzi prospekində - M.Rəsulzadə prospekti ünvanında, yerləşən bu ev 20 ildirki bu vəziyyətdədir, gündən-günə uçulub dağılır. Ev 2 qardaş arasında bölünmüşdür, bir qardaş evin özünə aid hissəsində yaşayır, digər qardaş isə Bakıdadır. Elə evin dağılan hüssəsi də Bakıda yaşayan qardaşa məxsusdur. Deyilənlərə görə, evin ona məxsus hissəsinin qəza vəziyyətinə düşməsi, ciddi təmirə ehtiyacı olması barədə ona dəfələrlə məlumat verilmişdir, lakin hər dəfə cavabı bu olmuşdur ki, "ev mənimdir, qoy dağılsın!" . Özü də deyilənlərə görə Bakıda yaşayan qardaşın maddi cəhətdən imkanı yaxşıdır və evi təmir etdirmək onun üçün heç də çətin bir iş deyil, sadəcə, eqoistlik edir.

Bəs Şəki Bələdiyyəsi və digər yerli orqanlar hara baxırlar? Axı vətəndaşın eqoistliyi Şəki şəhərinin gözəlliyinə xələl gətirir!

***"İpəlçi"***

**Foto -etüd**




# Şair Rövzət vəfat etdi

Aprelin 15-də, şair həmyerlimiz Rövzət, 71 yaşında, Bakı şəhərində vəfat etmişdir. O, məşhur dilçi alim, professor Əzəl Dəmirşizadənin oğlu idi.

Rövzət Dəmirçizadə 1939-cu il yanvar ayının 3-də Şəki şəhərində dünyaya göz açmışdı. 20 yaşında ikən, bədbəxt hadisə nəticəsində şikəst olmuş və ancaq əlil arabası ilə hərəkət etmişdi. Buna baxmayaraq, Rövzət, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmiş, 1980-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

"Qatarda" adlı ilk şeirlər kitabı 1968-ci ildə nəşr olunub. Sonralar "Tut ağacım" (1971), "Səhər duyğuları" (1974), "Səslər" (1978), "Çörək ətri" (1981), "Ürəyimdə yaşa-yanlar" (1986) və "Arzu gülü" (1990) adlı şeir kitabları çap edilmişdir.

Şairin "Dünyaya və özümə bir baxış" adlı sonuncu şeirlər kitabı isə 2008-ci ildə "Təbib" nəşriy-yatı tərəfindən çapdan çıxmışdır.

"İpəkçi", "Şəkinin səsi" və "Şəki fəhləsi" qəzetlərində vaxtilə, mərhum Rovzətin onlarla şeiri dərc olunmuş-dir.

Mərhum Bakı şəhərində torpağa tapşırıldı. Allah ona rəhmət eləsin.



# ŞƏKİ VƏ QAX ŞƏHƏRLƏRİNDƏ QULDURLUQ CİNAYƏTLƏRİ TÖRƏDƏN DƏSTƏ ZƏRƏRSİZLƏŞDİRİLİB

APA-nın yaydığı məlumata görə, Milli Təhlükəsizlik Nazirliyi (MTN) və Daxili İşlər Nazirliyi (DİN) tərəfindən birgə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində, oğurluq və quldurluq cinayətlərini törədən, eləcə də bu məqsədlə qanunsuz olaraq odlu silah, döyüş sursatı və qaz silahı əldə edən Azərbaycan vətəndaşlarından ibarət qabaqcadan əlbir olan bir qrup şəxs tutulub.

Bu barədə MTN-in İctimai Əlaqələr Mərkəzindən verilən məlumatda bildirilib. Saxlanılan şəxslər - Şahverdiyev Mehdi Kamal oğlu, Xəlilov İdris Şeyx oğlu, Dibirov Mehman Dibir oğlu, Əsgərov Ayaz Ələsgər oğlu, Abakarov Məhəmməd Mütəllib oğlu və Xudayev Vətən Rəcəb oğludur.

Müəyyən edilib ki, Şəki və Qax şəhərlərində quldurluq cinayətləri törətmək məqsədilə Mehdi Şahverdiyev istintaqa məlum olmayan mənbədən qanunsuz olaraq əldə edib saxladığı «AK-74» tipli avtomat, Mehman Dibirov isə qaz silahı ilə silahlanaraq, qrupun digər üzvləri Ayaz Əsgərov və İdris Xəlilovla birlikdə, sonuncunun idarə etdiyi «BMW» markalı avtomobildə 2010-cu il aprelin 4-də gecə vaxtı Balakən rayonundan Şəki rayonu istiqamətində yola düşüblər. Həmin gün DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının 718 saylı stasionar postunun inspektorları tərəfindən saat 00:30-da içərisində qrupun adlarıçəkilən üzvlərinin olduğu açıq-aşkar şübhə doğuran «BMW markalı» avtomobil saxlanılıb, baxış keçirilərkən, Mehman Dibirov qanunsuz olaraq əldə edib gəzdirdiyi qaz silahı olan qaz balonunu inspektorlara qarşı tətbiq edib. Bundan sonra, Mehman Dibirov qaz balonunu, Ayaz Əsgərov isə Mehdi Şahverdiyevə məxsus «AK-74» tipli avtomat silahı yolun kənarına ataraq hadisə yerindən qaçıb gizlənməyə çalışıblar.

Keçirilmiş çevik tədbirlər nəticəsində Mehdi Şahverdiyev və İdris Xəlilov tezliklə yaxalanıblar. Davam etdirilən əməliyyat-axtarış tədbirləri ilə Balakən rayonunun ərazisindəki meşə massivində gizlənən Mehman Dibirov və Ayaz Əsgərovda 2010-cu il aprelin 8-də yaxalanaraq istintaqa təhvil veriliblər. Qrupun üzvləri tutulduqlarına görə Şəki və Qax şəhərlərində konkret ünvanlar üzrə əvvəlcədən planlaşdırdıqları quldurluq əməllərini başa çatdıra bilməyiblər.

İş üzrə keçirilmiş istintaq hərəkətləri nəticəsində yeni xüsusatlar məlum olub, qrupun üzvləri tərəfindən əvvəllər törədilmiş digər cinayətlərin də üstü açılıb. Müəyyən edilib ki, təqsirləndirilən şəxslər Mehdi Şahverdiyev, Mehman Dibirov və qeyriləri əvvəlcədən hazırladıqları plana uyğun olaraq 2009-cu il dekabrın 10-da Ağdaş şəhər sakinləri Şıxıyeva Tənzilə Ağabala qızı və onun əri Məmmədov Nadir Məmməd oğlunun əmlaklarını ələ keçirmək məqsədilə evlərinə silahlı basqın edib, onların həyat və sağlamlıqları üçüntəhlükəli zorakılıq hərəkətləri tətbiq etməklə 40 min manat pullarını ələ keçiriblər.

Bundan başqa, Mehdi Şahverdiyevoğurluq, quldurluq və digər cinayətlərdə istifadə etmək üçün qanunsuz olaraq əldə edib saxladığı «AK-74» tipli avtomatla silahlanaraq, Vətən Xudayev və Mehman Dibirovla birlikdə Balakən rayonunun Katex kənd sakini Davudov Müslüm Murtuzəli oğlunun evinə basqın etmək məqsədilə 2010-cu il martın 30-da sonuncunun həyətinə gəlmiş və evi güdməyə başlayıblar. Təxminən saat 21:30-da Müslüm Davudov qonaqları və ailə üzvləri ilə birlikdə evdən çıxıb getdikdən sonra, Mehdi Şahverdiyev özündə olan avtomat silahı Mehman Dibirova verərək ona pusquda dayanmağı tapşırıb, özü isə Vətən Xudayevlə birlikdə həyətdə olan dəmir lingdən istifadə edərək evin pəncərəsinin metal barmaqlıqlarını aralayıb içəri daxil olub və ev sahibinə məxsus pul və zinət əşyalarını oğurlayaraq hadisə yerindən qaçıblar.

İş üzrə keçirilən istintaq hərəkətləri nəticəsində Mehdi Şahverdiyevin yaşadığı və işlədiyi «Balakən» mehmanxasındakı otağından 96 ədəd 5,45 və 20 ədəd 7,62 çaplı patron, eləcə də 25 ədəd «Makarov» tapançasının patronu və kustar üsulla hazırlanan kəsici və deşici xassəli 1 beşbarmaq, Mehman Dibirovun yaşadığı Balakən rayonunun Tülü kəndindəki evindən soyuq silah olan bıçaqlar və kustar üsulla hazırlanan qılınc və nizə, Məhəmməd Abakarovun həmin rayonunun Arılıq kəndindəki evindən isə 20 ədəd 5,45 çaplı patron, həmçinin evinin yaxınlığında gizlətdiyi Mehman Dibirova məxsus «TOZ-8» markalı tüfəng, ona aid 37 ədəd patron və 1 süngü-bıçağı aşkar edilərək götürülüb.

Göstərilən faktlarla bağlı MTN-in İstintaq Baş İdarəsi tərəfindən Azərbaycan Cinayət Məcəlləsinin 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə), 177.2.1-ci və 177.2.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən oğurluq məqsədilə yaşayış sahəsinə qanunsuz daxil olma), 181.2.1-ci, 181.2.3-cü, 181.2.4-cü və 181.2.5-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən silah qismində istifadə edilən əşyalar tətbiq etməklə quldurluq məqsədilə yaşayış sahəsinə qanunsuz daxil olma, zərər çəkmiş şəxsə xeyli ziyan vurma) maddələri ilə cinayət işinin istintaqı aparılır.

Mehdi Şahverdiyev, İdris Xəlilov, Mehman Dibirov, Ayaz Əsgərov, Məhəmməd Abakarov və Vətən Xudayev təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə bütün halların araşdırılması, hüquqazidd əməllərin digər iştirakçılarının ifşası üçün istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

***Maraqlıdır***

## Budur, artıq ABŞ-ın dağılma mərhələsi yetişdi?!

Təxminən, 30 il əvvəl, bir televiziya verilişinin mövzusu, deyəsən, nəhs rəqəmlər idi. Belə ki aparıcı, yaxud verilişə dəvət olunmuş ortayaşlı bir kişi qeyd etdi ki, "4" Hindistanda ən nəhs rəqəm hesab olunur. Sonra isə o, Hindistanın 1-ci prezidenti Cavahirləl Nehrunun bu barədə dediyi sözləri iqtibas gətirdi: "44 müdhiş bir rəqəmdir! Baxarsınız, ABŞ da məhz 44 cü prezidentinin vaxtinda dağılacaqdır!!!

Mən bu verilişi seyr edəndə yeniyetmə yaşında idim, amma orada deyilənlər indiyə qədər yadımda qalıb. Düz 30 ildir gözləyirəm ki, görək Amerikanın 44-cü prezidenti kim olacaq? Və ABŞ doğrudanmı dağılacaq? Yeri gəlmişkən, 44-cü prezident rəsmən öz vəzifəsinin icrasına başlamamışdan öncə belə, Cavahirləl Nehrunun heç də səhv etmədiyinə daha çox inanmağa məcburuq. Bəli, C. Nehrunun dedikləri düz çıxmaqdadır. Belə ki 44-cü prezident heç də əvvəlki prezidentlərə oxşamır. O ilk qaradərili ABŞ prezidentidir. ABŞ-ın iqtisadi durumunu isə, bəlkə də bu ölkə tarixinin son 100 ili üçün ən acınacaqlı vəziyyətdədir...

***Bilirsinizmi?***

## 1918-ci ildə, 1 ilin içində Şəki şəhəri əhalisinin yarısından çoxu - təxminən, 33 min nəfəri, aclıq, səfalət və xəstəlikdən tələf olmuşdur!

Bu məsələ indiyə qədər araşdırılmayıb. Bəziləri deyirlər ki, adamlar acından ölmüşdür; belə ki Səki İpək sənayesi tənəzzülə uğramışdı və ölənlər isə bu sahədə işləyən 8 min fəhlə və onların 25 minlik külfəti imiş. Bəziləri deyirlər ki 33 min nəfər yatalaq xəstəliyi nəticəsində dünyasını dəyişmişdir. Amma bizdə belə bir məlumat da var ki, o il bütün dünyada 100 milyon adam "İspan qripi" nin qurbanı olmuşdur və mümkündür ki Şəkidə də məhz, həmin epidemiya tüğyan edibmiş.

Hər-halda razılaşın ki biz bu dəhşətli hadisəni öyrənməyə və həlak olmüş şəkililərin xətirəsinə heç olmasa bir abidə qoymağa mənən borcluyuq!

***Aydın***

"ANAGES GÜNEŞ ENERJİ SİSTEMLERİ" Şəkidə!



## Şəki İcra Hakimiyyəti saytının son xəbərləri

### AZƏRBAYCAN DÖVLƏT GƏNC TAMAŞAÇILAR TEATRI ŞƏKİDƏ QASTROL SƏFƏRİNDƏDİR

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (ADGTT) aprelin 21-22-də Şəki şəhərində qastrol səfərində olacaqdır.

Şəki Şəhər İcra Hakimiyyətinin dəvəti ilə gerçəkləşən bu səfərdə yaradıcı kollektiv şəkililərə Q.Fiqeyredunun "Ezop" tamaşasını təqdim edəcəkdir.

Xalq Artisti Cənnət Səlimovanın quruluş verdiyi tamaşada əsas rolları Əməkdar artistlər İlqar Cahangirov, Nofəl Vəliyev, Gülər Nəbiyeva, aktyorlar İradə Rəşidova, Vüsal Mehrəliyev, Rövşən Abbasov, Emin Sevdiməliyev və başqaları oynayacaqlar.

*22/04/2010*

### ŞƏKİDƏ "ŞAHİN" HƏRBİ-İDMAN OYUNUNUN ZONA YARIŞLARI KEÇİRİLMİŞDİR

Aprelin 16-da Şəki şəhərindəki "N" saylı hərbi hissədə "Şahin" hərbi-idman oyununun zona mərhələsinin yarışları keçirilmişdir. Yarışlarda Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ rayonlarının və Mingəçevir şəhərinin komandaları iştirak etmişlər.

Gənclər və İdman, Təhsil, Müdafiə, Fövqəladə Hallar nazirlikləri və KHVTİC-in birgə təşkilatçılığı ilə keçirilən bu yarışların açılış mərasimində Şəki şəhər gənclər və idman idarəsinin rəisi Vüqar İskəndərov ölkəmizdə yeniyetmə və gənclərin hərtərəfli inkişafına göstərilən yüksək dövlət qayğısından danışmış, yarış iştirakçılarına uğurlar arzulamışlar.

Komandalar sıra hazırlığı, avtomatın sökülüb yığılması, hədəfə atəş açma, maneənin dəf olunması, mülki müdafiə hazırlığı, ilk tibbi yardım və digər yarışlarda öz qüvvələrini sınamışlar.

Zona mərhələsini ilk iki pillədə başa vuran Qax və Mingəçevir komandaları hərbi-idman oyununun mayda Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanmışlar. Zaqatala komandası isə yarışları üçüncü pillədə başa vurmuşdur. Yarışın qaliblərinə Gənclər və İdman Nazirliyinin diplomları, habelə şəhər gənclər və idman idarəsinin qiymətli hədiyyələri təqdim edilmişdir.

Ev sahibi Şəki komandası isə hərbi-idman oyununun Göyçayda keçirilən zona yarışlarında uğurla çıxış edərək final mərhələsinə vəsiqə qazanmışdır.

*19/04/2010*

### YAPONİYANIN AZƏRBAYCANDAKI SƏFİRİ ŞƏKİDƏ OLMUŞDUR

Yaponiyanın ölkəmizdəki səfiri Masamitsu Oki "Ot kökləri və insan təhlükəsizliyi" Qrant Yardımı Proqramı çərçivəsində həyata keçirilən "Qurcana çayının "yuxarı qoruq"

ərazisindən keçən hissəsinin təmizlənməsi, çay məcrasının aşağı salınması və uçmuş bəndlərin təmiri" layihəsinin icra vəziyyəti ilə tanış olmaq məqsədi ilə aprelin 15-də Şəki şəhərində olmuşdur.

Sözügedən layihə üzrə 2009-cu ilin dekabrında Yaponiya səfirliyi ilə "Şəki Ekologiya və Təhsil Mərkəzi" Gənclərin İctimai Birliyi arasında qrant müqaviləsi imzalanmışdır.

Şəki bələdiyyəsinin sədri Fikrət Cəfərov və ictimai birliyin rəhbəri Əlirza Məhərrəmov səfirə görülmüş işlər barədə məlumat vermişlər. Səfir işlərin gedişi ilə yerindəcə tanış olmuş, layihənin başa çatdırılması işində inşaatçılara uğurlar arzulamışdır.

*19/04/2010*

### ŞƏKİDƏ MAL-QARANIN SAYI ARTMIŞDIR

Şəki rayonunun heyvandarları cari qışlama dövrünü müvəffəqiyyətlə başa vurmuşlar. Şəhər statistika idarəsindən bildirmişlər ki, hazırda rayonun şəxsi və fermer təsərrüfatlarında saxlanılan inək və camışların sayı 86 min 166 başa, davarların sayı 383 min 14 başa çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə inək və camışların sayı 1319 baş, davarların sayı isə 23 min 502 baş artmışdır.

Hazırda təsərrüfatlarda yazlıq bitkilərin əkini davam edir. İndiyədək artıq 1175 hektarda əkin aparılmışdır. Fermerlər 510 hektar sahədə kartof, 445 hektarda tərəvəz, 80 hektarda venəmir əkmiş, 140 hektar sahəyə çoxillik yonca toxumu səpmişlər.

Taxıl əkilmiş sahələrdə aqrotexniki qulluq işləri davam etdirilir, gübrə verilir, zərərvericilərə qarşı mübarizə aparılır.

*19/04/2010*

### "ŞƏKİ – AZƏRBAYCANIN SƏNƏTKARLIQ PAYTAXTI – 2010" İLİNİN TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR

Xəbər verildiyi kimi, Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" Proqramına əsasən Şəki şəhəri cari ildə Azərbaycanın sənətkarlıq paytaxtı elan olunmuşdur. Proqram çərçivəsində 2010-cu ildə Şəki şəhərində xalq tətbiqi sənəti, ənənəvi dekorativ sənəti və milli təsviri sənət ənənələri ilə bağlı silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Aprelin 3-də şəhərin mərkəzində yerləşən parkda "Şəki - Azərbaycanın Sənətkarlıq Paytaxtı - 2010" ilinin təntənəli açılış mərasimi keçirilmişdir. Tədbirdə şəhər rəhbərliyi, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri və digər qonaqlar iştirak etmişlər. Tədbirin keçirildiyi meydan paytaxt ilinin rəmzləri ilə, o cümlədən loqotip, bayraq, lövhə və digər əyani vəsaitlərlə bayramsayağı bəzədilmiş, iştirakçılara hədiyyələr paylanmışdır.

Mərasimi giriş sözü ilə açan şəhər icra hakimiyyətinin başçısı Nazim İbrahimov bildirmişdir ki, qədim dövlətçilik ənənələrinə, zəngin tarixə, yüksək mədəniyyətə malik olan Şəki şəhəri, eyni zamanda sənətin və sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olmuşdur. El sənətkarlarının misilsiz sənət ənənələrini davam etdirən yüzlərlə Şəki sənətkarının fədakar əməyi sayəsində bu qədim şəhərdə zəngin tarixi-mədəni irs yaranmışdır. Dəmirçilik, nalbəndlik, şəbəkə, dulusçuluq, papaqçılıq, ipəkçilik və onlarla istehsal sahəsi Şəki sənət məbədinin başlıca sütunlarını təşkil etmişdir.

Məlumat verilmişdir ki, proqramın həyata keçirilməsinin əsas məqsədi Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması və təbliğ olunması, xalq tətbiqi sənətinin daha da inkişaf etdirilməsi, eyni zamanda paytaxt şəhərlərin turizm potensialının genişləndirilməsi, beynəlxalq səviyyədə tanıdılması və davamlı sosial-iqtisadi inkişafına nail olmaqdır. Şübhə yoxdur ki, tarixən şəhərdə mövcud sənət sahələrinin qorunub saxlanmasına, itib-batan bir çox sənət sahələrinin bərpasına təsir göstərə biləcək paytaxt nominasiyası proqramı Şəkidə xalq tətbiqi dekorativ sənətinin inkişaf etdirilməsində yeni mərhələnin başlanğıcını qoyacaqdır.

Mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva demişdir ki, 2010-cu ildə Şəki şəhərinin Azərbaycanın sənətkarlıq paytaxtı elan edilməsi əlbəttə təsadüfi deyildir. Vətənimizin gözəl, dilbər guşələrindən olan qədim Şəki torpağı əsrlərlə sənətkarlar məskəni olmuşdur. Burada memarlıq, tətbiqi sənət, ağac və sümük üzərində oyma, dulusçuluq, misgərlik, şəbəkə, zərgərlik və digər sənət növləri yüksək inkişaf etmişdir. Şəki uzun illər Azərbaycanda, eləcə də bütövlükdə Qafqazda ipəkçiliyin mərkəzi olmuşdur. XIX əsrdə dünyada ən böyük ipəksarıma fabriki məhz Şəkidə fəaliyyət göstərirdi. Şəki sənətkarlarından söz düşəndə əlbəttə ki bu qədim diyarın özünəməxsus mətbəxini unutmaq olmaz. Şəki şirniyyatı, Şəki halvası, Şəki pitisi artıq ölkəmizdən xaricdə də tanınır. Şəki dünya əhəmiyyətli tarix-memarlıq abidələri ilə də məşhurdur. Şəki xanlarının sarayı, Şəkixanovların evi, Cümə məscidi, Dairəvi məbəd, Yuxarı və Aşağı Kanvansaralar, "Gələrsən-Görərsən qalası" və s. məşhur tarixi abidələrdir. Bu gün biz böyük qürurla qeyd edirik ki, milli mədəniyyətimizin inciləri olan ulu muğamımız, aşıq sənətimiz, Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bütün bunlar, əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın mədəni irsimizin qorunması və təbliğinə yönəldilmiş çoxşaxəli fəaliyyətlərinin, qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği işinə göstərdikləri xüsusi diqqət və qayğının məntiqi nəticəsidir.

Tədbirdə şəhər mədəniyyət və turizm şöbəsinin müdiri Aydın İbrahimxəlilov Şəkinin 2010-cu ildə Azərbaycanın sənətkarlıq paytaxtı elan edilməsindən iftixar hissi keçirdiklərini qeyd etmiş, göstərilən etimada görə şəhər ictimaiyyəti adından nazirliyin rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Daha sonra tədbir XIX əsrə aid tarix-memarlıq abidəsi "Yuxarı Karvansara" mehmanxana kompleksinin həyətində bədii proqramla davam etdirilmişdir. Tədbir iştirakçıları el sənətkarlarının əl işləri, hazırladıqları sənətkarlıq nümunələri ilə tanış olmuşlar. Bakıdan gəlmiş "İrs" folklor və F. Əmirov adına Dövlət Mahnı və Rəqs ansambllarının, habelə şəhər mədəniyyət və turizm şöbəsinin musiqi kollektivlərinin rəngarəng çıxışları iştirakçılarda xoş ovqat yaratmışdır.

*05/04/2010*

### SOYQIRIMI QURBANLARININ XATİRƏSİ ANILMIŞDIR

Şəkidə 31 mart – Azərbaycanlıların soyqırımı günü ilə bağlı "Erməni genosidi" mövzusunda elmi-nəzəri konfrans keçirilmişdir.

Təhsil, səhiyyə və mədəniyyət işçilərinin, gənclərin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə şəhər təhsil şöbəsinin müdiri Firədun İbrahimov açaraq, 92 il bundan əvvəl - 1918-ci il martın sonunda erməni silahlı birləşmələrinin azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğınlar və onun acı nəticələri barədə danışmış, Bakıda, Şamaxıda, Qubada, Lənkəranda və Azərbaycanın digər yerlərində törədilən bu qətliamlar zamanı on minlərlə həmvətənimizin qəddarcasına öldürüldüyünü, xalqımızın qiymətli maddi mədəniyyət abidələrinin məhv edildiyini xatırlatmışdır.

Konfransda "Azərbaycanlılara qarşı erməni genosidi bəşər tarixinin ən qanlı səhifələrindəndir", "Tariximizin qanlı izləri", "1918-20-ci illərdə ermənilərin Azərbaycanda həyata keçirdiyi soyqırımı hadisələri", "Ermənilərin məkrli siyasətinin mart soyqırımından sonrakı illərdə davamı", "Sovet hakimiyyəti illərində Şəkidə erməni fitnəkarlığı" və digər mövzularda məruzə və çıxışlar dinlənilmişdir. Bu çıxışlarda ermənilərin azərbaycanlılara qarşı zaman-zaman həyata keçirdikləri soyqırımı barədə həqiqətlər tarixi faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırılmış, qanlı cinayətlərin yüz illər boyu planlı şəkildə davam etdirildiyi vurğulanmışdır.

Şəhər icra hakimiyyətinin başçısı aparatının şöbə müdiri Rəfail Mənəfov bildirmişdir ki, tarixi şərait səbəbindən ötən iki əsr ərzində baş vermiş hadisələrə, xalqımızın faciələrinə obyektiv qiymət vermək mümkün olmamışdır. Yalnız Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra soyqırımı barədə həqiqətlərin beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü iş aparılmış, ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla erməni millətçilərinin hərəkətlərinə dolğun və hərtərəfli hüquqi-siyasi qiymət verilmişdir.

*01/04/2010*



## ŞƏKİ TELEVİZİYASI

# Kanal S

### Verilişlərin poqramı

### 28-aprel - 2 may

**28 APREL** *çərşənbə*

07:58 Günün proqramı
08:00 Gün gəlir
10:00 T\S"Alovlu həyat"
10:45 Həftənin qonağı(təkr)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T\S"Həbsdən qaçış"
16:00 Derbi (təkrar)
17:20 Həyat hekayələri
18:00 Hit-mix+
18:45 T\S"Alovlu həyat"
19:30 Kanal S Xəbər
20:00 İ Q
21:00 İpək kimi
21:30 Evin ici
22:45 T\S"Həbsdən qaçış"
23:30 Kanal S Xəbər
23:45 B/F"Başqa dünya2"
02:00 Efirin sonu

**29 APREL** *cümə axşamı*

07:58 Günün proqramı
08:00 Gün gəlir
10:00 Cizgi filmi
10:30 T\S"Alovlu həyat"
11:20 Avtomobil dünyası
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 T\S"Həbsdən qaçış"
16:00 Şou məkan(təkr)
16:45 Sağlam həyat
17:45 Extreme sport
18:00 Hit-mix+
18:45 T\S"Alovlu həyat"
19:30 Kanal S Xəbər
20:00 İ Q
21:00 "5" qazan
22:00 Gəzərsən görərsən
22:45 T\S"Həbsdən qaçış"
23:30 Kanal S Xəbər
23:45 Kriminal
00:20 B/F"Açılmış qucaq"

**30 APREL** *cümə*

07:58 Günün proqramı
08:00 Gün gəlir
10:00 Cizgi filmi
10:30 T\S"Alovlu həyat"
11:15 Sağlam həyat(təkr)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 Evin ici (təkrar)
16:30 Cizgi filmi
18:00 Hit-mix+
18:45 T\S"Alovlu həyat"
19:30 Kanal S Xəbər
20:00 İ Q
21:00 Dəcəllər
21:30 İslam dünyası
22:00 "SMS istəklə olan B\F"
23:30 Kanal S Xəbər
23:45 Bədii film
01:30 Klip
02:00 Efirin sonu

**1 MAY** *şənbə*

07:58 Günün proqramı
08:00 Gün gəlir
10:00 T\S"Çağırış"(təkrar)
10:45 Cizgi filmi
11:00 Həyat hekayələri
11:25 İslam dünyası(təkr)
12:00 Hit-mix
13:00 B/F (təkrar)
15:00 Kanal S Xəbər
15:15 İpək kimi(təkr)
15:45 Şərəfli ömür (təkr)
16:15 Sənədli film
17:00 T/S"Qaraca atın macəraları"
17:30 Hit-mix+(top 10)
18:30 Bundes liqa
19:30 Kanal S Xəbər
20:00 Təzə məzə
21:00 Düyməcik
21:30 T\S"Çağırış"
22:20 Şou məkan
23:30 Kanal S Xəbər
23:45 B/F"Dağıdıcı"
01:30 Klip
02:00 Efirin sonu

**2 MAY** *bazar*

07:58 Günün proqramı
08:00 Xəbər
08:15 Sənədli film
09:00 Lüks həyat(təkrar)
09:30 Düyməcik (təkrar)
10:00 T\S"Çağırış"(təkrar)
10:45 Klip
11:30 B\F(təkrar)
13:10 Gəzərsən görərsən
14:00 Muğam konserti
15:30 Avtomobil dünyası
16:00 Azərlə hər bazar
17:00 T/S"Qaraca atın macəraları"
17:30 Bu şəhərdə 10
20:30 Bu həftə
21:30 T\S"Çağırış"
22:20 Həftənin qonağı
23:30 Bədii film
01:15 Kriminal(təkrar)
02:00 Efirin sonu

**Həmtəsisçilər:**
1. "Şəki-İpək" şirkəti;
2. M. Salis.

**Redaktor:** A. Məmmədov.

**Çapa təqdim edildi:** 27.04.2010.
**Sifariş:** 1639.
**Tiraj:** 300.
**Şəhadətnamə №** 177.

**Ünvanımız:** Az.5500. Şəki şəhəri, Z.Bünyadov, 33.
**E-mail:** aydin.salis@gmail.com
**Tel.:** 055 793 23 83
012 480 12 45
0177 423 15

***"İpəkçi" qəzetinin kompüterində yığılmış və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.***

***"İpəki" qəzeti müstəqil KİV olaraq fəaliyyət göstərir və bu qəzetdə dərc olunmuş xəbər və məqalələrə görə "Şəki-İpək" ASC heç bir məsuliyyət daşımır!***